**AZƏRBAYCAN RESPUBLİKASI**

**ALİ MƏHKƏMƏSİ**

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2021-ci il üzrə fəaliyyətinə dair

# H E S A B A T I

# MÜNDƏRİCAT

1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2021-ci il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat......................**s. 3-5**

2. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2021-ci il üzrə icraatında olmuş işlərə dair məlumat.............................................**s. 6-23**

3. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış mülki işlərin apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili.......................................................................................**s. 24-45**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının**

**2021-ci il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının tərkibində 2021-ci ildə 16 hakim fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Milli Məclisinin 21 may 2021-ci il tarixli Qərarına əsasən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimi İlqar Dəmirovun vəzifəsi dəyişdirilərək, Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilmiş, Ali Məhkəmənin Mülki Kollegiyasının hakimi Gündüz Quliyev təqaüdə çıxmışdır. Hazırda Ali Məhkəmənin Mülki Kollegiyasının tərkibi hakimlər Sənan Hacıyev (Mülki Kollegiyanın sədri), Şəlalə Məmmədova, İlqar Xələfov, Ələsgər Əliyev, Mehparə Əhmədova, Əhməd Nurməmmədov, Əhməd Əhmədov, Elşanə Vəliyeva, İsmayıl Xəlilov, Abiddin Hüseynov, Vüqar Həsənov, Zaur Əliyev, Elşad Şamayev, Aqil Abbasov və İspəndiyar Şəfiyevdən ibarətdir.

1. Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədi ilə Mülki Kollegiya 2021-ci il ərzində aşağıdakı 3 mübahisəli məsələ ilə bağlı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş yeni mexanizmə müraciət etmişdir. Hər 3 halda mübahisəli hüquqi məsələlərə hüquq ictimaiyyətinin diqqətini çəkmək məqsədi ilə Ali Məhkəmənin internet səhifəsi və sosial şəbəkələr vasitəsilə verilmiş məlumat nəticəsində maraqlı şəxslər, o cümlədən hüquqşünaslar və ayrı-ayrı təşkilatlar tərəfindən çoxsaylı yazılı formada əsaslandırılmış rəylər (*amicus curiae* rəyi) təqdim edilmiş, nəticədə Ali Məhkəmənin şəffaflığı və ictimaiyyətə açıqlığı təmin olunmuşdur.

a) *İcra icraatı çərçivəsində borclunun əmlakının hərracdan satılması qaydası ilə bağlı qanunvericiliyin tətbiqi üzrə mübahisəli hüquqi məsələ;*
b) *Müqavilə öhdəliklərinin icrası tələbləri üzrə iddialara baxıldığı halda, ayrıca icraatda həmin müqavilələrin etibarsızlığı tələblərinə baxılmasının mümkünlüyünə dair qanunvericiliyin tətbiqi üzrə mübahisəli hüquqi məsələ;*
c) *Əsas öhdəlik üzrə tələbə şamil olunan iddia müddətinin keçdiyi halda əmlakın ipoteka yüklülüyündən azad edilməsi mümkünlüyü ilə bağlı mübahisəli hüquqi məsələ.*

Mülki və Kommersiya kollegiyalarının 24 noyabr 2021-ci il tarixli birgə iclasında “İcra icraatı çərçivəsində borclunun əmlakının hərracdan satılması qaydası ilə bağlı qanunvericiliyin tətbiqi üzrə” müvafqi Qərardad qəbul edilmişdir.

Müqavilə öhdəliklərinin icrası tələbləri üzrə iddialara baxıldığı halda, ayrıca icraatda həmin müqavilələrin etibarsızlığı tələblərinə baxılmasının mümkünlüyünə dair mübahisəli hüquqi məsələ hal-hazırda icraatdadır.

Əsas öhdəlik üzrə tələbə şamil olunan iddia müddətinin keçdiyi halda əmlakın ipoteka yüklülüyündən azad edilməsinin mümkünlüyü ilə bağlı mübahisəli hüquqi məsələ Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci və «İpoteka Haqqında» Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Balakən Rayon Məhkəməsinin müraciəti ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatına qəbul edildiyindən kollegiyanın baxışından çıxarılmışdır.

2. 2021-ci il ərzində Mülki Kollegiya daxilində qanunverciliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı bir sıra hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırılmış, habelə şərəf və ləyaqətin müdafiəsi, o cümlədən övladlığagötürmə sahəsində qanunvericiliyin tətbiqinə dair bir sıra məsələlər üzrə qanunvericiliyin tətbiqi məsələsinə dair məhkəmələrə icmal məktubları ünvanlanmışdır.

3. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinin dördüncü hissəsinə əsasən Məhkəmə Hüquq Şurası tərəfindən təsdiq edilmiş “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması” Qaydalarına uyğun olaraq ilk dəfə “Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 28 noyabr 2011-ci il tarixli (20 fevral 2020-ci ildə edilmiş dəyişikliklərlə) Qərarının, habelə işlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətləri haqqında” Ali Məhkəmə Plenumunun 2020-ci il 18 sentyabr tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmə fəaliyyətinin monitorinqləri həyata keçirilmişdir.

4. Azərbaycan Respublikası Ali Məhkəməsində işçi qrupu yaradılaraq, Mülki Prosessual Məcəlləyə və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununa əlavə və dəyişiklər edilməsi barədə Qanun layihəsi hazırlanmış, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq, habelə Hüquq siyasəti və dövlət quruculuğu komitələrində təklif edilən dəyişikliklərə dair Qanun layihəsinin müzakirəsində iştirak edilmişdir. Bundan başqa, Milli Məclisin Plenar sessiyasında Mülki və İnzibati Prosessual Məcəllələrin və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklərin edilməsinə dair birgə müzakirələr aparılmışdır.

5. “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklərin edilməsi haqqında”, habelə “Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” 09 iyul 2021-cil tarixli qanunların 01 oktyabr 2021-ci ildən qüvvəyə minməsi ilə əlaqədar olaraq, bütün birinci və apellyasiya məhkəmələrin hakimləri, hakimliyə namizədlər, vəkillər və vəkilliyə namizədlər, habelə Ali Məhkəmənin aparatının əməkdaşları üçün təlimlər həyata keçirilmişdir.

6. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinə əlavə və dəyişkliklərin edilməsi ilə əlaqədar olaraq, Mülki kollegiya tərəfindən müvafiq təhlil aparılaraq, “Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bir sıra qərarlarında dəyişikliklər edilməsi haqqında” qərar layihəsi hazırlanmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 24 dekabr 2021-ci il tarixli iclasında qeyd edilən Qərar qəbul edilmişdir. Qərarla “Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair işlər üzrə məhkəmə təcrübəsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2019-cu il 12 aprel tarixli 3 nömrəli qərarında, “Hakimə (məhkəmə tərkibinə) etiraz etmə barədə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2005-ci il 24 noyabr tarixli 3 nömrəli qərarında “Məhkəmə qətnaməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2005-ci il 24 noyabr tarixli 4 nömrəli qərarında “İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 18 sentyabr tarixli 10 saylı Qərarında “Ərizənin baxılmamış saxlanılması barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2011-ci il 31 mart tarixli 3 nömrəli qərarında, “İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2015-ci il 10 aprel tarixli 04 nömrəli qərarında bir sıra dəyişiklik edilmişdir.

7. İş planına uyğun olaraq Azərbaycan Respublikasının rayon (şəhər) məhkəmələrində 2017, 2018-ci illərdə və 2019-cu ilin birinci yarımilində uşaqların ölkədən getməsinə (çıxarılmasına) icazə verilməsi ilə əlaqədar valideynlər arasında mübahisələrlə bağlı işlərə baxılarkən qüvvədə olan qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsi həyata keçirilərək, geniş arayış hazırlanmışdır.

8. Aparılmış ümumiləşdirmənin nəticələrinə əsasən Mülki kollegiya tərəfindən “Uşaqların ölkədən getməsinə icazənin verilməsi ilə əlaqədar valideynlər arasında yaranan mübahisələr üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Qərar layihəsi hazırlanaraq təqdim edilmiş və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 24 dekabr 2021-ci il tarixli iclasında qeyd edilən Qərar qəbul edilmişdir.

9. İş planına uyğun olaraq, Mülki Kollegiyanın məhkəmə qərarları təhlil edilərək, qanunvericiliyin tələbləri, beynəlxalq təcrübə, habelə qərarların çatımlılığı ilə bağlı ictimai tələbat nəzərə alınmaqla, yeni qərar nümunəsi layihəsi, habelə bu yeni qərarların forma və məzmununa dair tələbləri əks etdirən işçi sənəd kimi daxili istifadə üçün nəzərdə tutulan təlimata əsasən 2021-ci ildən tam şəkildə yeni formada qərarların yazılması təmin edilmişdir.

10. Hesabat dövrü ərzində Mülki Kollegiya tərəfindən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olan aşağıdakı 8 müraciət üzrə yazılı mülahizələr verilmişdir:

*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması üzrə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) sorğusuna dair;*

*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1291 və 1321.1-ci maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 24.1-ci maddəsi ilə müqayisəli şəkildə şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337.1, 337.2, 337.5, 339.6, 346 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3.1-ci maddəsi ilə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 43.1-ci, 44.1-ci, 53-cü və 59.1-ci maddələrinin müqayisəli şəkildə, habelə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 294 və 296-cı maddələrinin şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Ailə Məcəlləsinin 37.3-cü maddəsinin şərh edilməsi barədə Balakən Rayon Məhkəməsinin müraciətinə dair;*

*- Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 35.1, 35.3 və 39.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsi barədə Qaradağ Rayon Məhkəməsinin müraciətinə dair.*

*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 109-1.1-ci maddəsinin Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 110.1 və 110.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsi barədə Bakı Apellyasiya Məhkəməsinin müraciətinə dair*

*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci və «İpoteka Haqqında» Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair*

11. İş planına uyğun olaraq mülki məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə Ali Məhkəmənin Mülki Kollegiyası tərəfindən təkrar kassasiya icraatında baxılıb yenidən apellyasiya instansiyası məhkəmələrinin qətnamələri ləğv edilmiş bütün qərarlar üzrə Ali Məhkəmənin əvvəlki göstərişlərinin icra olunması vəziyyəti öyrənilərək, müvafiq hesabat hazırlanmışdır.

12. 2021-ci il də səlahiyyət müddəti bitən birinci instansiyası məhkəməsinin 68 hakiminin fəaliyyətlərinin qiymətləndirilməsinə dair rəylər hazırlanaraq, Məhkəmə-Hüquq Şurasına təqdim edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının**

**2021-ci il üzrə icraatında olan işlərinə dair məlumat**

**I** 2021-ci ildə Mülki Kollegiyanın icraatında cəmi 7953 iş olmuşdur. Onlardan 1827 iş (23%) 2020-ci ildən qalıq keçmiş, 6126 iş (77%) isə 2021-ci il ərzində daxil olmuşdur. 2020-ci ildə isə Mülki Kollegiyanın icraatında cəmi 7312 iş olmuşdur. Onlardan 1251 iş (17.1%) 2019-cu ildən qalıq keçmiş, 6061 iş (82.9%) 2020-ci il ərzində daxil olmuşdur.




**II** 2020-ci il ilə müqayisədə görünür ki, 2021-ci ildə icraatda olan işlərin sayı 641 iş (8.8%) artmışdır.



**III** 2020-2021-ci illərə qalıq keçmiş işləri müqayisə etdikdə görünür ki, icraata daxil olan qalıq işlərin sayı 2021-ci ildə 576 iş (46%) artmışdır. 2020-ci ildə daxil olan 6061 iş ilə 2021-ci ilin müvafiq dövründə daxil olan 6126 işlərin sayını müqayisə etdikdə isə görünür ki, 2021-ci ildə il ərzində daxil olan işlərin sayı 65 iş (1.1%) artmışdır.




**IV** 2021-ci il ərzində Mülki Kollegiyanın icraatında olan 7953 mülki işdən 1114 iş növbəti ilə qalıq kimi keçmiş, 2020-ci ildə isə Mülki Kollegiyanın icraatında olan 7312 işdən 1827 iş 2021-ci ilə qalıq kimi keçmişdir. 2020-2021-ci illər üzrə bu göstəricilərin müqayisəsindən görünür ki, növbəti ilə qalıq keçmiş işlərin sayı 713 iş (39%) azalmışdır.



**V** 2021-ci il də Kollegiyanın icraatında olan 7953 mülki işdən 6839 (86%) işə baxılması yekunlaşmış, 1114 (14%) iş növbəti ilə qalıq kimi keçmişdir.

**Qeyd**: İl ərzində yekunlaşmış işlərə, baxılmış, baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmış işlərin cəmi daxildir.




**VI** 2021-ci ildə Kollegiyanın icraatında olan 7953 mülki işdən 6839 işə (86%) baxılması yekunlaşmış, 2020-ci ildə isə Kollegiyanın icraatında olan 7312 mülki işdən 5485 işə (75%) baxılması yekunlaşmışdır. 2020-2021-ci illər üzrə bu göstəricilərin müqayisəsindən görünür ki, yekunlaşmış işlərin sayı 1354 iş (24.7%), bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə yekunlaşmış işlərin faiz nisbətinin göstəricisi isə 11% artmışdır.



**VII** 2021-ci ildə Kollegiyanın icraatında olan 7953 işdən 657 işə (8.3%) baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmışdır. 2020-ci ildə isə Kollegiyanın icraatında olan 7312 işdən 235 iş (3.2%) baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmışdır. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin sayı 422 iş (180%), bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin faiz nisbətinin göstəricisi isə 5.1% artmışdır.




**VIII** 2021-ci ildə yekunlaşmış 6839 işdən 69 iş (1%) aidiyyət mübahisələri ilə bağlı olmuşdur. 2020-ci ildə isə yekunlaşmış 5485 işdən 31 iş (0.6%) aidiyyət mübahisələri ilə bağlı olmuşdur. 2020-2021-ci illər üzrə müqayisədə aidiyyət mübahisələri ilə bağlı işlərin sayı 38 iş (122%), bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə aidiyyət mübahisələri ilə bağlı işlərin faiz nisbətinin göstəricisi isə 0.5% artmışdır.



**IX** 2021-ci ildə Mülki Kollegiyada 6113 işə (76.9%) baxılmış, 2020-ci ildə baxılmış işlərin sayı isə 5219 iş (71.4%) olmuşdur. 2020-2021-ci illər üzrə Mülki Kollegiyada baxılmış işlərin müqayisəli təhlilindən görünür ki, baxılmış işlərin sayı 894 (17.1%) iş, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmış işlərin faiz nisbətinin göstəricisi isə 5.5% artmışdır.




**X** 2021-ci ildə baxılmış 6113 işdən 4465 (73.1%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış, 1554 (25.4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, 58 (0.9%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş, 36 (0.6%) iş üzrə kassasiya icraatına xitam verilmişdir.



**XI** 2021-ci ildə dəyişdirilmədən saxlanılan 4465 iş Kollegiyada baxılmış 6113 işin 73.1%-ni təşkil etmişdir. 2020-ci ildə dəyişdirilmədən saxlanılan 3999 iş Kollegiyada baxılmış 5219 işin 76.6%-ni təşkil etmişdir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə dəyişdirilmədən saxlanılan işlərin sayı 466 iş (11.7%) artsa da, bu illər üzrə baxılmış işlərlə dəyişdirilmədən saxlanılan işlərin faiz nisbətinin göstəricisi 3.5% azalmışdır.

2021-ci ildə məhkəmə aktı ləğv edilən 1554 iş mahiyyəti üzrə baxılmış 6113 işin 25.4%-ni təşkil etmişdir. 2020-ci ildə ləğv edilən 1122 iş mahiyyəti üzrə baxılmış 5219 işin 21.5%-ni təşkil etmişdir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı ləğv edilən işlərin sayı 432 iş (38.5%), bu illər üzrə baxılmış işlərlə ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 3.9% artmışdır.

2021-ci ildə kassasiya icraatına xitam verilən 36 iş baxılmış 6113 işin 0.6%-ni təşkil etmişdir. 2020-ci ildə kassasiya icraatına xitam verilən 31 iş baxılmış 5219 işin 0.6%-ni təşkil etmişdir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə kassasiya icraatına xitam verilən işlərin sayı 5 iş (16%) artmış, bu illər üzrə baxılmış işlərlə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə eyni olmuşdur.

2021-ci ildə məhkəmə aktı dəyişdirilən 58 iş Kollegiyada baxılan 6113 işin 0.9%-ni təşkil etmişdir. 2020-ci ildə məhkəmə aktı dəyişdirilən 67 iş Kollegiyada baxılan 5219 işin 1.3%-ni təşkil etmişdir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 9 iş (13.4%), bu illər üzrə baxılmış işlərlə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi isə 0.4% azalmışdır.



**XII** 2020-ci ildə baxılmış 5219 işdən 1122 iş (21.5%) üzrə qərardad və ya qətnamə ləğv edilmiş, 2021-ci ildə isə 6113 işdən 1554 iş (25.4%) üzrə qərardad və ya qətnamə ləğv olunmuşdur. Göründüyü kimi, 2020-ci il ilə müqayisədə 2021-ci ildə ləğv edilmiş işlərin sayı 432 iş, bu illər üzrə baxılmış işlərlə məhkəmə aktı ləğv edilmiş işlərin faiz nisbətinin göstəricisi isə 3.9% artmışdır.






**XIII** 2021-ci ildə məhkəmə aktı ləğv edilən 1554 işdən 1303 iş (83.8%) yeni apellyasiya baxışına göndərilmiş, 134 iş (8.6%) üzrə yeni qərar qəbul edilmiş, 4 iş (0.3%) baxılmamış saxlanılmış, 113 iş (7.3%) üzrə icraata xitam verilmişdir.




**XIV** 2021-ci ildə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilən 1303 iş ləğv edilən 1554 işin 83.8%-ni təşkil etmişdir. 2020-ci ildə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilən 980 iş ləğv edilən 1122 işin 87.3%-ni təşkil etmişdir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə təkrar baxışa göndərilən işlərin sayı 323 iş (33%) artsa da, bu illər üzrə ləğv edilən işlərlə təkrar baxışa göndərilən işlərin faiz nisbətinin göstəricisi isə 3.5% azalmışdır.

2021-ci ildə məhkəmə aktı ləğv edilərək yeni qərar çıxarılan 134 iş ləğv edilən 1554 işin 8.6%-ni təşkil etmişdir. 2020-ci ildə məhkəmə aktı ləğv edilərək yeni qərar çıxarılan 66 iş ləğv edilən 1122 işin 5.9%-ni təşkil etmişdir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə yeni qərar çıxarılan işlərin sayı 68 iş (103%), bu illər üzrə ləğv edilən işlərlə yeni qərar çıxarılan işlərin faiz nisbətinin göstəricisi 2.7% artmışdır.

2021-ci ildə məhkəmə aktı ləğv edilib iddia (ərizə) baxılmamış saxlanılan 4 iş ləğv edilən 1554 işin 0.3%-ni təşkil etmişdir. 2020-ci ildə məhkəmə aktı ləğv edilib iddia (ərizə) baxılmamış saxlanılan 2 iş ləğv edilən 1122 işin 0.2%-ni təşkil etmişdir. Göründüyü kimi, məhkəmə aktı ləğv edilərək iddia baxılmamış saxlanılan işlərin sayı 2 iş (100%) artmış, 2020-2021-ci illər üzrə ləğv edilən işlərlə məhkəmə aktı ləğv edilib iddia (ərizə) baxılmamış saxlanılan işlərin faiz nisbətinin göstəricisi isə 0.1% artmışdır.

2021-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 113 iş ləğv edilən 1554 işin 7.3%-ni təşkil etmişdir. 2020-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 74 iş ləğv edilən 1122 işin 6.6%-ni təşkil etmişdir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən işlərin sayı 39 iş (52.7%), bu illər üzrə ləğv edilən işlərlə məhkəmə aktı ləğv edilib iş üzrə icraata xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.7% artmışdır.






**XV** Aşağıdakı diaqramlardan **birincisində** 2021-ci ildə Mülki Kollegiyanın icraatında olmuş işlərin 2020-ci ilə münasibətdə nə qədər azalıb-artması işlərin sayına uyğun göstərilmiş, **ikinci diaqramda** isə 2020-2021-ci illər üzrə Mülki Kollegiyanın icraatında olmuş işlərin göstəricilərinin faiz nisbətində nə qədər azalıb-artması göstərilmişdir.






**2021-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında ümumilikdə baxılmış işlərin (6113) və baxılıb məhkəmə aktı ləğv edilən işlərin (1554) kateqoriyalar üzrə bölgüsü**

| İndeks № | İddianın kateqoriyası | Baxılmış işlərin sayı | Faiz[1] | Ləğv olunmuş işlərin sayı | Faiz[2] |
|---|---|---|---|---|---|
| 1. | Ailə münasibətləri üzrə mübahisələr | 792 | 13% | 139 | 17.6% |
| 9. | Əmək mübahisələri | 309 | 5.1% | 90 | 29.1% |
| 13. | Mənzil mübahisələri | 581 | 9.5% | 158 | 27.2% |
| 14. | Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 239 | 3.9% | 70 | 29.3% |
| 16. | Torpaq mübahisələri | 269 | 4.4% | 93 | 34.6% |
| 18. | Müqavilənin bağlanması, dəyişdirilməsi, ləğv edilməsi, etibarsız hesab edilməsi və məcburi bağlanması | 358 | 5.9% | 93 | 26% |
| 23. | Borc müqaviləsi üzrə mübahisələr | 318 | 5.2% | 72 | 22.6% |
| 24. | Kredit müqaviləsi (Bank və ya BOKT ilə bağlanan müqavilələr) üzrə mübahisələr | 1304 | 21.3% | 279 | 21.4% |
| 20-22, 25-32 | Digər müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr | 744 | 12.2% | 204 | 27.4% |
| 33. | Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 449 | 7.3% | 115 | 25.6% |
| 34. | Vərəsəlik hüququ üzrə mübahisələr | 151 | 2.5% | 44 | 29.1% |
| 41. | Xüsusi icraat işləri üzrə | 81 | 1.3% | 30 | 37% |
| 56. | Şərəf və ləyaqətin müdafiəsi üzrə | 68 | 1.1% | 20 | 29.4% |
| 57. | Sair mülki işlər | 449 | 7.3% | 147 | 32.7% |

[1] Hər kateqoriya üzrə baxılmış işlərin sayının Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan ümumi işlərə münasibətdə faizlə göstəricisi.
[2] Hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi.

## 2020-2021-ci illərdə Ali Məhkəmənin Mülki Kollegiyasında ümumilikdə baxılmış işlərin (5219/6113) kateqoriyalar üzrə bölgüsü



## 2020-2021-ci illərdə Ali Məhkəmənin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilmiş işlərin (1122/1554) kateqoriyalar üzrə bölgüsü

*QEYD: Diaqramda hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi verilmişdir.*



**XVI** 2021-ci ildə Mülki Kollegiyanın icraatında baxılmış 6113 işdən 679 (11.1%) iş təkrarən kassasiya icraatında olmuşdur. 2020-ci ildə isə kollegiyanın icraatında baxılmış 5219 işdən 561 (10.7%) iş təkrarən kassasiya icraatında olmuşdur. Bu illər üzrə baxılmış işlərlə kassasiya icraatında təkrarən baxılan işlərin faiz nisbətinin göstəricisi 0.4% artmışdır.




2021-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 679 mülki işdən 459 iş (67.6%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmış, 155 iş (22.9%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi yenidən ləğv edilib, təkrar apellyasiya baxışına göndərilmiş və ya yeni qərar qəbul edilmişdir.



2021-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 679 işdən 45 iş (6.6%) üzrə Ali Məhkəmənin Mülki kollegiyasının əvvəlki göstərişləri icra olunmadığından, 85 iş (12.5%) üzrə isə göstərişlər qismən icra edildiyindən apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilmişdir. 2021-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 679 işdən 22 iş (3.2%) üzrə Ali Məhkəmənin əvvəlki göstərişləri tam icra edilsə də, apellyasiya instansiyası məhkəməsi tərəfindən digər maddi və prosessual hüquq normaları pozulduğundan məhkəmə qətnaməsi ləğv edilmişdir.



**XVII.** 2021-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə **236** ərizə olmuşdur. Onlardan 37 (15.7%) ərizə 2020-ci ildən qalıq keçmiş, 199 (84.3%) ərizə 2021-ci il ərzində daxil olmuşdur. 177 (75%) ərizəyə baxılmış, 23 (9.7%) ərizə geri qaytarılmış, 36 (15.3%) ərizə 2022-ci ilə qalıq keçmişdir.

2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə **142** ərizə olmuşdur. Onlardan 24 (16.9%) ərizə 2019-cu ildən qalıq keçmiş, 118 (83.1%) ərizə 2020-ci ilin yanvar-dekabr aylarında daxil olmuşdur. 103 (72.5%) ərizəyə baxılmış, 2 (1.4%) ərizə geri qaytarılmış, 37 (26.1%) ərizə 2021-ci ilə qalıq keçmişdir.

2020-2021-ci illər üzrə müqayisə etdikdə görünür ki, 2021-ci ildə mülki kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə **94** (66.2%) ərizə artmışdır.



2021-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında baxılmış Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 177 ərizədən 164 (92.7%) ərizə təmin edilmiş, 13 (7.3%) ərizə rədd edilmişdir.

2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında baxılmış Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 103 ərizədən 96 (93.2%) ərizə təmin edilmiş, 7 (6.8%) ərizə rədd edilmişdir.






**XIII.** 2020-ci ildə əlavə kassasiya qaydasında şikayət, protest, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə və işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətlərin sayı **381,** 2021-ci ildə isə **258** müraciət olmuşdur.

2020-ci ildə 1 müraciət Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun baxışına çıxarılaraq, əlavə kassasiya şikayəti təmin edilmiş, iş yeni apellyasiya baxışına göndərilmişdir. 2021-ci ildə heç bir əlavə kassasiya şikayəti təmin edilməmiş, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında 4 ərizə və işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan 1 nəfər şəxsin müraciəti təmin edilmişdir.



# Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış mülki işlərin apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili


2021-Cİ İLDƏ MÜLKİ KOLLEGİYADA BAXILMIŞ İŞLƏRİN (6113 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 598 iş ; 9.8%
Naxçıvan MR Ali Məhkəməsi;28 iş; 0.5%
Şirvan Apellyasiya Məhkəməsi; 705 iş; 11.5%
Bakı Apellyasiya Məhkəməsi; 3125 iş; 51.1%
Sumqayıt Apellyasiya Məhkəməsi; 757 iş; 12.4%
Gəncə Apellyasiya Məhkəməsi; 900 iş; 14.7%


2020-Cİ İLDƏ MÜLKİ KOLLEGİYADA BAXILMIŞ İŞLƏRİN (5219 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 503 iş ; 9.6%
Naxçıvan MR Ali Məhkəməsi; 22 iş; 0.4%
Şirvan Apellyasiya Məhkəməsi; 647 iş; 12.5%
Bakı Apellyasiya Məhkəməsi; 2689 iş; 51.5%
Sumqayıt Apellyasiya Məhkəməsi; 689 iş; 13.2%
Gəncə Apellyasiya Məhkəməsi; 669 iş; 12.8%




Diaqramlardan göründüyü kimi, 2021-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış 6113 işdən 3125 iş (51.1%) Bakı Apellyasiya Məhkəməsindən, 900 iş (14.7%) Gəncə Apellyasiya Məhkəməsindən, 757 iş (12.4%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 705 iş (11.5%) Şirvan Apellyasiya Məhkəməsindən, 598 iş (9.8%) Şəki Apellyasiya Məhkəməsindən, 28 iş (0.5%) isə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən daxil olmuşdur.

2021-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilmiş 1554 işdən 752 iş (48.4%) Bakı Apellyasiya Məhkəməsindən, 203 iş (13%) Gəncə Apellyasiya Məhkəməsindən, 225 iş (14.5%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 211 iş (13.6%) Şirvan Apellyasiya Məhkəməsindən, 159 iş (10.2%) Şəki Apellyasiya Məhkəməsindən, 4 iş (0.3%) Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuşdur.

**Apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış işlərə münasibətdə 2019-2021-ci illər üzrə faiz göstəriciləri**

| APELLYASİYA MƏHKƏMƏLƏRİ | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 19.7% | 22% | 24% |
| Gəncə Apellyasiya Məhkəməsi | 16.1% | 21.07% | 22.6% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 20.1% | 21% | 29.7% |
| Şirvan Apellyasiya Məhkəməsi | 15.9% | 19.7% | 29.9% |
| Şəki Apellyasiya Məhkəməsi | 20.3% | 22.46% | 26.6% |
| Naxçıvan MR Ali Məhkəməsi | 11.9% | 22.7% | 14.3% |

**2019-2021-ci illər üzrə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin faiz göstəricilərinin müqayisəsi**



# BAKI APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 3125 işə baxılmış, 2321 iş (74.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 752 iş (24%) üzrə məhkəmə aktı ləğv edilmiş, 30 iş (1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 22 iş (0.7%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2020-ci ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 2689 işə baxılmış, 2047 iş (76.1%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 592 iş (22%) üzrə məhkəmə aktı ləğv edilmiş, 35 iş (1.3%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 15 iş (0.6%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə baxılmış işlərin sayı 436 iş (16.2%) artmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 274 iş (13.4%) artmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 160 iş (27%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 1.8% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 2% artmışdır.

2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 5 iş (14.3%) azalmış, kassasiya icraatına xitam verilən işlərin sayı 7 iş (46.7%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.3% azalmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.1% artmışdır.









Diaqramlardan göründüyü kimi, Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə Qərarlarının ləğv faizində 2019 - 2021-ci illər üzrə sabit artım müşahidə edilir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 752 işdən 69 iş (9.2%) üzrə yeni qərar qəbul edilmiş, 624 iş (82.9%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 2 iş (0.3%) üzrə ərizə baxılmamış saxlanılmış, 57 iş (7.6%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 592 işdən 33 iş (5.6%) üzrə yeni qərar qəbul edilmiş, 521 iş (88%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (0.2%) üzrə ərizə baxılmamış saxlanılmış, 37 iş (6.2%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 36 iş (109%), məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 103 iş (19.8%), məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı isə 20 iş (54.1%) artmışdır.



# GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 900 işə baxılmış, 679 iş (75.4%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 203 iş (22.6%) üzrə məhkəmə aktı ləğv edilmiş, 11 iş (1.2%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmiş, 7 iş (0.8%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2020-ci ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 669 işə baxılmış, 517 iş (77.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 141 iş (21,1%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmiş, 4 iş (0.6%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə baxılmış işlərin sayı 231 iş (34.5%) azalmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 162 iş (31.3%), məhkəmə aktı ləğv edilən işlərin sayı 62 iş (44%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 1.9% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 1.5% artmışdır.

2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 4 iş (57%), kassasiya icraatına xitam verilən işlərin sayı isə 3 iş (75%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.2%, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.2% artmışdır.









*Diaqramlardan göründüyü kimi, Gəncə Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2019 - 2021-ci illər üzrə artım müşahidə edilir.*

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 203 işdən 15 iş (7.4%) üzrə yeni qərar qəbul edilmiş, 172 iş (84.7%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 15 iş (7.4%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (0.5%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 141 işdən 10 iş (7.1%) üzrə yeni qərar qəbul edilmiş, 121 iş (85.8%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 10 iş (7.1%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı ləğv edilib, iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 5 iş (50%), məhkəmə aktı ləğv edilib, yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 51 iş (42.1%) artmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı isə 5 iş (50%) artmışdır.



## SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 757 işə baxılmış, 523 iş (69.1%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 225 iş (29.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 3 iş (0.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 6 iş (0.8%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2020-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 689 işə baxılmış, 531 iş (77.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 145 iş (21,0%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 5 iş (0.7%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə baxılmış işlərin sayı 68 iş (9.9%) artmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 8 iş (1.5%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 80 iş (55%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 8.2% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 8.7% artmışdır.

2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 4 iş (57%) azalmış, kassasiya icraatına xitam verilən işlərin sayı 1 iş (20%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.6% azalmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi 0.1% artmışdır.









*Diaqramlardan göründüyü kimi, Sumqayıt Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2020 - 2021-ci illər üzrə kəskin artım müşahidə edilir.*

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 225 işdən 17 iş (7.6%) üzrə yeni qərar qəbul edilmiş, 190 iş (84.4%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 17 iş (7.6%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (0.4%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 145 işdən 5 iş (3.4%) üzrə yeni qərar qəbul edilmiş, 130 iş (89.7%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 10 iş (6.9%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 12 iş (240%) artmış, məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 60 iş (46.2%), məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı 7 iş (70%) artmışdır.



# ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 705 işə baxılmış, 484 iş (68.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 211 iş (29.9%) üzrə məhkəmə aktı ləğv edilmiş, 9 iş (1.3%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 1 iş (0.1%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2020-ci ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 647 işə baxılmış, 506 iş (78.2%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 126 iş (19.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 10 iş (1.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 5 iş (0.6%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə baxılmış işlərin 58 iş (9%) artmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 22 iş (4.3%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 85 iş (67.5%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 9.5% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 10.2% artmışdır.

2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 1 iş (10%), kassasiya icraatına xitam verilən işlərin sayı 4 iş (80%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.2%, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.5% azalmışdır.









*Diaqramlardan göründüyü kimi, Şirvan Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2020 - 2021-ci illər üzrə kəskin artım müşahidə edilir.*

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 211 işdən 22 iş (10.4%) üzrə yeni qərar qəbul edilmiş, 174 iş (82.5%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 15 iş (7.1%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 126 işdən 9 iş (7.1%) üzrə yeni qərar qəbul edilmiş, 109 iş (86.5%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (5.6%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (0.8%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 13 iş (144%), məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 65 iş (59.6%) artmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı isə 8 iş (114.3%) artmışdır. 2021-ci ildə məhkəmə aktı ləğv edilib, iddia (ərizə) baxılmamış saxlanılan iş olmamışdır.



# ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 598 işə baxılmış, 434 iş (72.6%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 159 iş (26.6%) üzrə məhkəmə aktı ləğv edilmiş, 5 iş (0.8%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, kassasiya icraatına xitam verilən iş olmamışdır.

2020-ci ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 503 işə baxılmış, 381 iş (75.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 113 iş (22.5%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 2 iş (0.4%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə baxılmış işlərin sayı 95 iş (18.9%), məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 53 iş (13.9%), məhkəmə aktı ləğv edilən işlərin sayı 46 iş (40.7%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 3.1% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 4.1% artmışdır.

2020-cu illə müqayisədə 2021-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 2 iş (28.6%) azalmış, 2021-ci ildə kassasiya icraatına xitam verilən iş olmamış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.6% azalmışdır.









*Diaqramlardan göründüyü kimi, Şəki Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2019 - 2021-ci illər üzrə artım müşahidə edilir.*

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 159 işdən 10 iş (6.3%) üzrə yeni qərar qəbul edilmiş, 140 iş (88%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 9 iş (5.7%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 113 işdən 9 iş (8%) üzrə yeni qərar qəbul edilmiş, 94 iş (83.2%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 10 iş (8.8%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 1 iş (11.1%) artmış, məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 46 iş (48.9%) artmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı 1 iş (10%) azalmışdır. 2020-2021-ci illərdə məhkəmə aktı ləğv edilib, iddia (ərizə) baxılmamış saxlanılan iş olmamışdır.



# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ

2021-ci ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 28 işə baxılmış, 24 iş (85.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 4 iş (14.3%) üzrə məhkəmə aktı ləğv edilmişdir.

2020-ci ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 22 işə baxılmış, 17 iş (77.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 5 iş (22.7%) üzrə məhkəmə aktı ləğv edilmişdir.

Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə baxılmış işlərin sayı 6 iş (27.3%), məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı isə 7 iş (41.2%) artmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 1 iş (20%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 8.4% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 6.4% azalmışdır.









*Diaqramlardan göründüyü kimi, Naxçıvan MR Ali Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2020-ci il üzrə artım müşahidə edilsə də, 2021-ci il üzrə azalma müşahidə edilir.*

Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 4 işdən 1 iş (25%) üzrə məhkəmə aktı ləğv edilib, yeni qərar qəbul edilmiş, 3 iş (75%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir. Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 5 işin hamısı üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir.

